# Mustafa Kamal Atatürk və milli azadlıq hərəkatı

**Hüseyn Günəşli**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun elmi işçisi*



I Dünya müharibəsinin nəticələri Osmanlı dövləti üçün ağır oldu. 1917-ci ildə bolşevik inqilabı ilə Rusiyada hakimiyyətin dəyişməsi, bolşeviklərin ölkəni müharibədən çəkməsi, şərqi Anadoludan rus qoşunlarının çıxarılmasına baxmayaraq İttifaq ölkələri müharibədə dönüş yarada bilmədi. Əksinə, Almaniyanın Avropa ölkələri ilə ticarət edən Amerikan gəmilərini vurması, Meksikadakı fəaliyyətləri ABŞ-ın I Dünya müharibəsinə qoşulmasına səbəb oldu. Bu da müharibəni tamamilə İttifaq ölkələrinin əleyhinə çevirdi. 1918-ci ilin yanvarında ABŞ prezidenti Vilsonun "Prinsiplər"i elan olundu. Öz müqəddəratını təyin etmə hüququnun verilməsi, yeni torpaqlar və təzminat tələb edilməməsi kimi təkliflər İttifaq ölkələrinin tez bir zamanda atəşkəs imzalamasına da öz təsirini göstərdi. May ayında Rumıniya və sentyabrda Bolqarıstan təslim oldu. Bolqarıstanın təslim olması Osmanlı dövləti ilə Almaniya arasındakı bir başa əlaqəni kəsdi və Osmanlının vəziyyətini daha da çətinləşdirdi. Bunun nəticəsi olaraq 30 oktyabr 1918-ci ildə Osmanlı imperiyası 24 maddəlik Mudros müqaviləsini imzalayaraq təslim oldu.

Bu müqavilə əslində Osmanlı imperiyasının süqutunu təsdiqləyirdi. Belə ki, boğazlara nəzarət Antanta ölkələrinə verilirdi. Osmanlı donanması ləğv edilirdi. Ordu birlikləri ən yaxındakı düşmən birliklərinə təslim olmalı və tez bir zamanda təxris edilməli idi. Ən əsası isə bu müqavilə ilə Antanta ölkələri hər hansı bir təhlükə hiss etdikdə Osmanlı ərazisini işğal etmək hüququ qazanırdı. Antanta dövlətləri artıq öz aralarında Osmanlı imperiyasının hansı formada bölüşdürəcəklərini planlaşdırırdı. Bunun hansı formada olacağını qısa bir müddət sonra imzalanacaq olacaq Sevr müqaviləsində də görəcəyik.

Lakin türk xalqının son iki yüz ildir davam edən məğlubiyyətlər və torpaq itkiləri ilə düşmüş olduğu bu çətin vəziyyət 1919-cu ilin 19 mayında Mustafa Kamal adlı bir türk paşasının Samsun limanından Anadoluya ayaq basması ilə dəyişməyə başladı. Sonradan qələmə aldığı "Nutuk" adlı kitabında bu vəziyyəti belə izah edir: "*Bu vəziyyət qarşısında tək bir qərar vardı. O da milli hakimiyyətə əsaslanan qeydsiz, şərtsiz müstəqil yeni bir Türk dövləti qurmaq. İstanbuldan çıxmadan öncə düşündüyüm və Samsundan Anadolu torpaqlarına ayaq basar basmaz tətbiq etməyə başladığım qərar bu idi*".

Kim idi Mustafa Kamal: 1881-ci ildə Osmanlının bəlkə də ən kosmopolit şəhərlərindən biri olan Selanikdə Əli Rza bəy və Zübeydə xanımın ailəsində anadan olmuşdur. İlk təhsilinə mədrəsədə başlasa da daha sonra o dövr üçün modern məktəb sayılan Şəmsi Əfəndinin məktəbində təhsilinə davam edir. Kiçik yaşlarında atasını itirir. Anasının razılığı olmadan və anasından xəbərsiz Selanik hərbi məktəbinə müraciət edərək sınaqlardan keçib məktəbə daxil olmuşdur. 4 illik məktəbi 2 ildə, özü də yüksək qiymətlərlə bitirir. Daha sonra təhsili Manastrdakı zabit məktəbində davam etdirir. 1897-ci ildə 16 yaşında məktəbdən qaçaraq Osmanlı və Yunanıstan krallığı arasında davam etməkdə olan



mühariBəyə könüllü olaraq qoşulur. Bütün üstünlük Osmanlı ordusunda idi və ordu Afinaya girmək üzərə ikən sultan II Əbdülhəmidin Rusiyanın təzyiqi ilə müharibəni saxlaması və ardınca gələn diplomatik məğlubiyyət Mustafa Kamalı sultan Əbdülhəmidin qəti əleyhdarlarından birinə çevirdi. 1901-ci ildə İstanbul Hərbi məktəbini leytenant, 1904-cü ildə Hərbi Akademiyanı kapitan rütbəsi ilə bitirmişdir.

Mustafa Kamal 1910-cu ildən Osmanlı dövlətinin qatılmış olduğu bütün müharibələrdə iştirak etmişdir. Trablisdə italyanlara qarşı, Balkan müharibələrində serb, bolqar və yunanlara qarşı savaşmışdır. I dünya müharibəsində işə ilk olaraq Çanaqqala cəbhəsinə, daha sonra isə Qafqaz və Suriya cəbhələrinə təyin edilmişdir. 13 noyabr 1918-ci ildə Suriyada yerləşən 7-ci ordu qərargahı ləğv edilərək İstanbula çağırılmışdır.

Mustafa Kamal İstanbulda olduğu müddətdə yeni hökumətin qurulmasında yaxından iştirak etmişdir. Lakin onun dəstəklədiyi İzzət paşa hökumətinin istefa verməsi və yerinə yeni hökumətin Tevfik paşa və sonra Damad Fərid paşa tərəfindən qurulması ilə artıq İstanbulda edilə biləcək hər hansı bir işin olmadığını anlamış və Anadoluya keçmək üçün yollar axtarmağa başlamışdır.

Bu dövrdə Qara dəniz bölgəsində ingilislərin dəstəklədiyi yunan silahlı qrupları ilə yerli türk əhali arasında silahlı toqquşmalar baş verirdi. İngiltərə hökuməti bu məsələnin tez bir zamanda həll edilməsi üçün Osmanlı hökumətinə təzyiq göstərirdi. Bu da yeni qurulan hökumətə müxalif olan Mustafa Kamalın İstanbuldan uzaqlaşdırılması üçün bəhanə oldu. O, 9-cu ordu müfəttişi kimi hərbi və sivil səlahiyyətlərlə Qara dəniz bölgəsinə göndərildi.

Artıq İzmir Yunanıstan, Adana Fransa, Urfa, Maraş, Antep İngiltərə və Konya, Antalya isə İtaliya tərəfindən işğal edilmişdi.

Samsunda Mustafa Kamal ilk olaraq Kazım Qarabəkir paşaya və Ali Fuad paşaya məktub yazaraq, onların dəstəyini aldı. 29 mayda o, Türkiyə tarixində “Havza genelgesi” olaraq keçən türk xalqından istəklərini sıraladığı yazısını elan etdi. Bu yazı bütün valilərə, təşkilatlara Ankara, Ərzurum, Konya və Diyarbəkirdəki hərbi birləşmələrə göndərildi və bununla Milli mübarizənin ilk addımı atılmış oldu.

Milli mübarizənin ilk inqilabi çıxışları isə “Amasya qərarları” ilə elan olundu. Belə ki, 21 iyun 1919-cu il tarixində bir sıra paşalarla Amasyada müəyyən qərarlar qəbul edildi və onlar xalqa elan olundu. Bu qərarlara əsasən İstanbul hökumətinin xalqı layiqincə təmsil etmədiyi bildirilir, vətənin bütövlüyünün və azadlığının yenə xalqın öz əzmi ilə əldə olunacağı elan olunurdu.

Bundan başqa milləti təmsil etmək, haqq və hüquqlarını bütün dünyaya bəyan etmək üçün milli bir heyətin toplanmasına qərar verilirdi. Hər bir şəhərdən xalqın güvənini qazanmış üç şəxs Sivasda keçiriləcək Milli kongresə dəvət olunurdu. Buna hazırlıq üçün isə, əsasən, Şərq əyalətlərinin nümayəndələrinin iştirakı ilə 23 iyulda Ərzurumda konqresin keçirilməsi qərarlaşdırılmışdı.

Fransanın rəsmi olaraq nota verməsi, Sivas şəhərini işğal etməklə hədələməsinə baxmayaraq, 4 sentyabr 1919-cu ildə Sivas konqresi öz işinə başladı. Konqresin sədrliyinə Mustafa Kamal paşa seçildi. İlk olaraq ölkənin ayrı-ayrı yerlərində fəaliyyət göstərən bütün milli cəmiyyətlərin bir mərkəzdə birləşdirilməsinə nail olundu. Yeni bir “Təmsil heyəti” seçildi və bu heyətə rəhbərlik də Mustafa Kamal paşaya həvalə olun-



du. Konqresin qərarlarına əsasən türk milləti milli sərhədlər daxilində vətənin bölünməzliyini, xarici müdaxilə və işğallara qarşı millətin özünü müdafiə edəcəyi və heç bir mandat və himayəni qəbul etməyəcəyini elan edirdi.

Bu qərarlar Anadolunun hər yerində sevinclə qarşılanırdı, hətta 1920-ci ilin yanvarında toplanan Osmanlı Milli məclisi də Ərzurum və Sivas konqreslərində elan olunan sülh müqaviləsi şərtlərini qəbul etdiyini elan etdi.

Mustafa Kamal paşanın nüfuzunun artması, mövcud olan bütün təşkilatlara və hətta Osmanlı Məclis-i Məbusanına təsir etmə imkanlarının olması artıq Antanta ölkələrini ciddi narahat edirdi. Buna görə də bir sıra səbəblərlə yanaşı həm də Anadoluda güclənməkdə olan xalq müqavimətinə təzyiq etmək məqsədi ilə 15 mart 1920-ci il tarixində İstanbul rəsmən işğal edildi, Milli Məclis ləğv edildi və bir çox millət vəkili həbs olundu. Buna cavab olaraq isə Mustafa Kamal paşa Milli Məclisin ən qısa zamanda Ankarada açılacağını elan etdi və təxminən 1 ay sonra 23 aprel 1920-ci il tarixində Türkiyə Böyük Millət Məclisi təntənəli şəkildə Ankarada öz fəaliyyətinə başladı. İlk toplantıda Mustafa Kamal məclisin sədri vəzifəsinə seçildi.

Ankarada bu hadisələr baş verərkən İstanbul hökuməti də Osmanlı dövlətinin parçalanması məqsədi ilə imzalanacaq sülh müqaviləsinin hazırlanması üçün keçirilən San Remo konfransında iştirak edirdi. İstanbul hökumətini təmsil edən Tevfik paşa müqavilənin şərtlərinin müstəqil bir dövlət tərəfindən qəbul edilməyəcəyini bildirdi. Damad Fərid paşanın da şərtləri yumşaltmaq ilə bağlı cəhdləri boşa çıxdı və nəhayət, 10 avqust 1920-ci il tarixində tərəflər arasında Sevr müqaviləsi imzalandı.

Bu müqavilə Osmanlı imperiyasının süqutu demək idi. İstanbul boğazları Osmanlının nəzarətindən çıxarılır, İstanbul paytaxt olaraq qalır, amma etnik azlıqların hüquqlarının qorunması məqsədi ilə türklərin əlindən alınır, Şərqi Anadoluda kürdlər dövlət qurmaq istəsə Osmanlının üzərinə bu dövləti tanıma öhdəliyi qoyulur, İzmir Osmanlı ərazisi olaraq qalır, amma idarəçilik Yunanıstana verilir və şəhər səs vermə ilə istənilən vaxt Yunanıstana birləşdirilə bilir, Mardin, Antep, Urfa daxil olmaqla Suriya fransızlara verilir, Van, Ərzurum, Bitlis və Trabzon ermənilərə verilir, dövlətin öz maliyyə işlərinə baxma hüququ belə əlindən alınır, yəni Osmanlı dövləti parçalanırdı.

Ancaq bu müqavilə Osmanlı dövlətində rəsmi olaraq qüvvəyə minmədi. Çünki müqaviləni Osmanlı Məclisi ratifikasiya etməli idi, amma Məclis öz fəaliyyətini Ankarada davam edirdi və rəsmi Ankara öz nümayəndəsinin iştirak etmədiyi heç bir danışığı və müqaviləni qəbul etmədiyini bildirdi.

Siyasi arenada baş verənlərlə yanaşı hərbi sahədə də bir çox dəyişikliklər baş verir, Ankara hökuməti burada da uğurlar qazanırdı. Ümumiliklə, türk qurtuluş savaşının silahlı mübarizəsini 2 hissəyə bölmək olar: birincisi – Mudros müqaviləsindən sonra yerlərdə işğallara qarşı qrupların silahlı müqaviməti, ikincisi isə –Ankara hökumətinin bu qrupları birləşdirməklə ölkəni qəti qələbəyə apardığı nizami ordunun fəaliyyəti.



İlk olaraq hərbi əməliyyatlar cənubi Anadoluda fransız və Şərqi Anadoluda erməni işğallarına qarşı başladı. Maraş, Adana və Antepin işğaldan azad edilməsi ilə 1921-ci ilin sonlarında fransız qoşunları Suriyaya çəkilmək məcburiyyətində qaldı. Daşnak Ermənistanının da Rusiya tərəfindən işğal edilməsi və oktyabrda Ankara hökuməti ilə bağlanan Qars müqaviləsi şərq sərhədinin də təhlükəsizliyini təmin etmiş oldu.

Qərb cəbhəsində isə, əsasən, yunan işğalına qarşı və İstanbulun azad edilməsi uğrunda mübarizə gedirdi. Bu cəbhədəki hər bir uğur siyasi danışıqlarda Ankara hökumətinin mövqeyini gücləndirirdi. Belə ki, I İnönü zəfərindən sonra İngiltərə Londonda yeni bir konfransın keçirilməsi və Sevr müqaviləsinin şərtlərinin yumşaldılmasını təklif edirdi. Lakin nizami ordunun ilk cəhddə belə uğurlu olması, xalqın Məclisə və orduya olan güvəninin artması Ankara hökumətinin masada daha çox tələb irəli sürməsinə səbəb olurdu. Bunun qarşısını almaq və Ankara hökumətinə təzyiqi artırmaq məqsədi ilə London konfransı bitməmiş yunan ordusu İngiltərə-

nin təkidi ilə yenidən hərəkətə başladı. 8 gün davam edən II İnönü müharibəsi də yunanların məğlubiyyəti ilə nəticələndi.

Sakarya meydan müharibələri və 1922-ci ilin 26 avqustunda başlayan Böyük Təərüz (hücum) ilə yunan ordusu tam məğlub edildi. İmzalanan Mudanya sülh müqaviləsi ilə yunan və türklər arasında silahlı mübarizə sona çatdı.

Müharibəni bitirən yeni bir sülh müqaviləsinin imzalanması ilə bağlı 27 oktyabr 1922-ci ildə Ankara hökuməti İsveçrənin Lozanna şəhərinə dəvət edildi. Ankara hökuməti ilə yanaşı İstanbul hökuməti də bu konfransa dəvət edildi. Bunda məqsəd iki qrup arasında fikir ayrılığı yaratmaq idi. Lakin konfrans öz işinə başlamadan öncə 1 noyabr 1922-ci il tarixində milli hökumət səltənətin ləğv edildiyini elan etdi və beləliklə millətin tək təmsilçisi olaraq milli hökumətin konfransa qatılacağı qərarlaşdırıldı. 20 noyabrda başlayan konfransda Türkiyənin qarşısında Böyük Britaniya, Fransa, İtaliya, Yunanıstan, Rumıniya və Yuqoslaviya dayanırdı. Sadəcə müharibə və ondan sonrakı dövr deyil, Osmanlı dövründən miras qalan yüz illik problemlər də bu konfransda müzakirə olundu. 1923-cü ilin 24 iyulunda imzalanan sülh müqaviləsində türk tərəfinin şərtləri, demək olar ki, tam şəkildə qəbul edildi. Türkiyənin sərhədləri müəyyənləşdirildi, borc məsələsi, kapitulyasiyalar, etnik azlıqlar məsələləri həll edildi və altı həftə ərzində İstanbul və boğazlar bölgəsinin boşaldılması qərarlaşdırıldı. 6 oktyabrda türk ordusunun İstanbula girməsi ilə Türkiyənin ərazi bütövlüyü təmin edildi.

29 oktyabr 1923-cü ildə Türkiyə Cümhuriyyəti elan edildi.

**Ədəbiyyat:**


1. Akşin Sina, "İstanbul Hükümetleri ve Milli Mücadele I (Mutlakiyyete Dönüş 1918-1919)". İstanbul: 2010
2. Bülent Tanör. "Kurtuluş, Kuruluş". İstanbul: 2009
3. Mahmut Goloğlu. "Milli Mücadele tarihi Erzurum Kongresi I". İstanbul: 2008.
4. Mehmet Kılıç. "Amasya Tamimi ve Protokolü". Amasya: 2004.
5. Mustafa Kamal Atatür: "Nutuk I". Ankara: 1999
6. Mustafa Müftüoğlu. "Milli Mücadele gerçekleri I". İstanbul: 2005.
7. Murat Erdoğan. "Osmanlı İmparatorluğunun çöküşünden Kurtuluş savaşına kadar türk dış politikası". Eskişehir: 2013
8. Salahi Sonyel. "Türk kurtuluş savaşı ve Dış politika I". Ankara: 1995
9. Levent Ürer. "Mudros'tan Mudanya'ya Türk dış politikası". İstanbul: 2005
10. Tuncay Baykara. "Milli Mücadele". Ankara: 1985.